**Tarix və onun problemləri, №3 2009**

**RƏHİLƏ BƏDƏLOVA**
***Bakı Dövlət Universitetinin Politologiya və sosiologiya kafedrasının dosenti***

# SİYASİ MÜNAQİŞƏLƏRİN MAHİYYƏTİ, BAŞ VERMƏ SƏBƏBLƏRİ

Müasir siyasi elmin məşğul olduğu ən aktual məsələlərindən biri də siyasi münaqişələr problemidir. Hazırkı dövrümüzdə siyasi münaqişələrin idarə olunması, ümumulikdə onların tənzimlənməsi yollarının tədqiq edilməsi həlli vacib problemlərdəndir. Lakin siyasi münaqişələrin tənzimlənməsi məsələsinə toxunmamışdan qabaq müəyyən sosial hadisə kimi onun mahiyyətini anlamaq gərəkdir.

Münaqişələrin mahiyyətini açıqlayarkən bir çox mütəfəkkirlər onları insanlar arasında qarşılıqlı fəaliyyətin xüsusi bir forması kimi də nəzərdən keçirirlər və qeyd edirlər ki, həmin qarşılqlı fəaliyyət özünü münaqişələrin müxtəlif tərəfləri arasında baş verən qarşıdurmalar şəklində büruzə verirlər. Belə tərəflər rolunda fərdlər, sosial qruplar, dövlət və s. çıxış edə bilirlər. İstənilən münaqişələrdə insanlar bu və ya digər məqsədi güdürlər və öz maraqlarının təmin olunması uğrunda mübarizə aparırlar. Bu mübarizələr isə əksər hallarda neqativ hisslərlə müşayət olunur. Münaqişələrn mahiyyətinin bu cür izahını ümumiləşdirərək belə nəticəyə gəlmək olar: münaqişə- öz məqsədlərinə çatmaq üçün bir-biri ilə qarşıdurma vəziyyətində olan insanlar arasındakı qapşılıqlı fəaliyyət formasıdır. Münaqişənin mahiyyətini açıqlayan bu izah ümumi şəkildə onların xüsusiyyətlərini aydınlaşdırır.

Münaqişələrin mahiyyətindən danışarkən hər şeydən əvvəl qeyd etmək lazımdır ki, hər bir münaqişənin əsasını insanlar arasında meydana çıxan ilk fikir ayrılığı təşkil edirlər. Məhz bu cür fikir ayrılıqları son nəticədə onlar arasında qarşıdurmalara gətirib çıxarır. Xatırlamaq yerinə düşərdi ki, münaqişələrə gətirib çıxaran fikir ayrılıqları heç də həmişə obyektiv xarakter daşımır. Əksər hallarda subyektiv amillər özlərini büruzə verir. İnsanlar arasında meydana çıxan fikr ayrılığını onların ilkin mərhələsində münaqişəsiz həll etmək mümkündür. Ümumilikdə fikir ayrılığı münaqişəli bir şəraitdə baş verə bilər. Lakin fikir ayrılığı problemi münaqişənin tam mahyyətini açıqlamaq üçün kifayət etmir. Bir çox mütəfəkkirlər bu məsələyə aydınlıq gətirərək qeyd edirlər ki, münaqişələr yalnız insanlar arasında ziddiyyətlərin kəskin forması deyil, həmçinin onların həlli yollarıdır. (1, s.12)

Ümumilikdə münaqişələr haqqında deyilənləri nəzərə alaraq siyasi münaqişələrə dair belə bir nəticə çıxarmaq olar: Siyasi münaqişələr-konkret mərhələləri keçən, qarşıduran tərəflər üçün siyasi mübarizələri özünəməxsus həll yolu olan sosial-siyasi bir hadisədir.

Siyasi münaqişələr sosial münaqişələrin ayrılmaz tərib hissəsidir. Siyasi münaqişələrdən danışarkən siyasi faktorun ön plana çəkmək vacib şərtlərdəndir. M.Veberin sözləri ilə desək siyasət-müxtəlif sosial qruplar arasındakı münasibətlərlə bağlı olan fəaliyyət sahəsidir və həmin fəaliyyətin mahiyyəti dövlət hakimiyyəti uğrunda mübarizədən ibarətdir. Bu o deməkdir ki, siyasətin əsas kateqoriyası hakimiyyətdir. Buradan çıxış edərək siyasi münaqişələrə bu cür aydınlıq gətirmək olar: siyasi münaqişə-hər hansı bir siyasi marağa və ya məqsədə çatmaq üçün hər hansı bir cəmiyyətdə, yaxud beynəlxalq arenada təmr etmək hüququ uğrunda ictimai qüvvələr arasında gedən mübarizədir. Cəmiyyətin siyasi həyatı çox mürəkkəbdir. Bu elə bir sferadır ki, burada liderlərin siyasi aktivliyi, cəmiyyətdə gedən proseslərə ciddi təsir göstərə biləcək siyasi iradələri başlıca əhəmiyyət kəsb edir. Siyasi münaqişələrin xarakterik xüsusiyyəti ondan ibarətdir ki, bu münaqişə-

lər cəmiyyətdə və beynəlxalq arenada siyasi təsir uğrunda gedən mübarizələrdən ibarətdir. (3, s.23)

Siyasi münaqişələrin nəzəri analizi onların subyektlərinin müəyyən olunmasından başlayır. Siyasi münaqişələrin subyektləri dedikdə bu və ya digər sosial qruplar və şəxslər başa düşülür ki, onlar digər qrupların istəklərinə zidd olan maraq və məqsədlərini həyata keçirməyə can atırlar. Buradan göründüyü kimi siyasi münaqişələrin subyekti rolunda istənilən siyasi münasibətlərin subyektləri çıxış edə bilər. Məsələn, cəmiyyətin siyasi həyatında fəal iştirak edən, cəmiyyətin fəaliyyətinə və inkişafına birbaşa təsir göstərmək iqtidarında olan ayrı-ayrı şəxsiyyətlər, böyük və kiçik qruplar və s. Bunlara başlıca olaraq aşağıdakıları aid etmək olar:

a) sosial qruplar (təbəqələr), siniflər, millətlər; b) formal təşkil olunmuş sosial birliklər-dövlətlər və onların koalisiyaları, partiyalar və s. v) siyasiləşmiş sosial hərəkatlar şəklində təzahür edən qeyri-formal birliklər. Bunlara isə iqtisadi və siyasi təzyiq qruplarını və s. aid etmək olar. Qeyd etmək lazımdır ki, siyasi münaqişələrin subyektlərinin bü cür qruplaşdırılması şərti xarakter daşıyır. Çünki müasir dövrümüzün sosial-siyasi həyatı o qədər mürəkkəb və rənarəngdir ki, hər hansı bir sosial qrupu qəti şəkildə münaqişə edən tərəflərdən birinə aid etmək çətindir. Bir çox müşahidələr göstərmişdir ki, siyasi plüralizm əksər hallarda eyni sosial təbəqənin, qrupun və ya birliyin nümayəndələrini cəbhənin müxtəlif tərəflərində qoyur. Ona görə də siyasi münaqişələrin subyekti rolunda yuxarıda sadalanan sosial qrupların, birliklərin, millətlərin və hamısı deyil, bir qismi çıxış edə bilər.

Siyasi münaqişələrin obyektlərin və subyektlərini nəzərdən keçirərkən onun bir çox spesifik xüsusiyyətlərə malik olduğunu aydın şəkildə göstərmək olar:

1) Siyasi münaqişələri fərqləndirən başlıca cəhətlərdən biri ondan ibarətdir ki, burada maraqların toqquşması daha açıq şəkildə özünü göstərir. Siyasət-cəmiyyət tərəfindən sosial gərginliyi azaltmaq üsuludur.

2) Siyasi münaqişələr əksər hallarda kütləvi xarakter daşıyır. Bu o deməkdir ki, istənilən siyasi münaqişə zamanı kütlə istər-istəməz münaqişə edən tərəflərdən birini dəstəkləməli olur.

3) Siyasi münaqişələr tarix boyu öz sıxlıqları ilə də fərqlənmişlər. Aparılan araşdırmalar göstərmişdir ki, siyasi münaqişələr həmişə digər münaqişələrə nisbətən daha tez-tez baş verirlər. Bunu onunla izah etmək olar ki, qeyri-siyasi arenada baş verən münaqişələr dinc yolla öz həllini tapa bilmədikdə siyasi xarakter alır, yəni onların artıq dövlət tərəfindən tənzimlənməsi zərurəti meydana çıxır.

4) Siyasi münaqişələr ümumi əhəmiyyət kəsb edirlər. Siyasi münaqişələrin lokallıq dərəcəsi nə qədər nəzərə çarpacaq olsa da nəticədə onlar dövlət tərəfindən tənzimlənirlər. Bu isə cəmiyyətin hər bir üzvü üçün əhəmiyyətlidir.

5) Siyasi münaqişələr zamanı münaqişələrin tənzimlənməsi yolu kimi güc resurslarından istifadəyə geniş yer verilir. Məlumdur ki, bütün hakimiyyət növlərindən yanlız dövlət leqal tətbiq etmə hüququna malikdir. Dövlət isə demək olar ki, bütün siyasi münaqişələrin iştirkaçısı olan siyasi bir təsisat kimi münaqişələrin həlli zamanı tam qanuni əsaslarla güc tətbiq etməli olur. Bu isə onu göstərir ki, siyasi münaqişələr daha təhlükəli və dağıdıcı nəticələrə qadirdilər. Siyasi münaqişələrin mahiyyətini açıqlamaq üçün onun növlərinə də diqqət yetirmək vacibdir. (4, s. 45)

Ənənəvi olaraq ümumi əsaslar üzrə siyasi münaqişələri aşağıdakı xüsusiyyətlərinə görə qruplaşdırmaq olar:

1. Siyasi münaqişələrin yayılma müstəvisinə görə;
2. Siyasi sistemin tipinə görə;

3. Münaqişənin predmetinin mahiyyətinə görə

Birinci vəziyyətə əsasənə totalitar və demokratik rejimlərin münaqişələrini fərqləndirirlər.

İkinci vəziyyətə əsasən isə maraqlar, dəyərlər, status və s. uğrunda baş verən münaqişələri fərqləndirirlər.

Siyasi münaqişələrin daxili və siyasi münaqişələrə ayrılması təbii haldır. Xarici siyasi münaqişələrdə münaqişənin subyekti rolunda dövlət və ya dövlətlər koalisiyası çıxış edir. Dövlətlər arasında münasibətləri əksər hallarda qarışılıqlı rəqabət əsasında formalaşır. məlumdur ki, hər bir dövlət təmsil etdiyi xalqın milli maraqlarına tabedir. Bu maraqların əsasını isə millətin mövcudluğu üçün vacib olan təhlükəsizlik, təbii resurslara nəzarət və onlardan istifadə, mədəni dəyərlərin və milli xüsusiyyətlərin qorunması kisi şərtlər təşkil edir.

Siyasi münaqişələrdən danışarkən onun başvermə səbəblərindən yan keçmək qeyri-mümkündür. Bunun üçün əvvəlcə ümumilikdə münaqişələrin başvermə səbəblərini insanların cəmiyyətdə qeyri-bərabər mövqe tutmasıdır. Yəni insanların bir qrupu idarə edib, əmrlər verdiyi halda digərləri onlara tabe olmaq və əmrlərini yerinə yetirmək məcburiyyətində qalırlar.

Münaqişələrin meydana gəlmə səbəbləri arasında fərdi və ictimai dəyərlərin üst-üstə düşməməsi özünü daha qabarıq şəkildə büruzə verir. Müşahidə göstərir ki, münaqişələrin meydana gətirən universal səbəblərdən biri də insanların öz tələbatlarını ödəmək üçün qeyri-bərabər imkanlara malik olmalıdır. Buradan çıxış edərək qeyd etmək olar ki, münaqişələr daimidir, çünki bütün arzu edənlərin tələbatlarını ödəməyə imkan verən bir cəmiyyət yaratmaq qeyri-mümkündür. Aydındır ki, cəmiyyətin bütün üzvlərinin istəkləri təmin olunarsa münaqişələr baş verməz. Lakin, bu zaman cəmiyyətin özünün inkişafı dayanardı. İnsan həyatı ziddiyyətlərdən toxunmuşdur. Həmin ziddiyyətlər isə cəmiyyətdə baş verən istənilən münaqişənin əsasını təşkil edə bilər. Ziddiyyətlər qarşı duran tərəflər arasında qarşılıqlı fəaliyyət formasının bir növüdür. Cəmiyyətin bütün sahələrində ziddiyyətlərə rast gəlmək olar. Sosial sferada ziddiyyətlər şəxsiyyətlə cəmiyyət arasında münasibətlərin əhatə edir. Bu zaman münaqişələrin əsasnı insanların sosial vəziyyətindəki fərqlər təşkil edir.

Siyasi arenada mövcud olan ziddiyyətlərin müəyyən edilməsi daha böyük əhəmiyyət kəsb edir. Bu ziddiyyətlər içərisində dövlətlə cəmiyyət arasında yaranan ziddiyyətlər tarixlər boyu diqqət mərkəzində olmuşdur. Dövlət həmişə xalq adından fəaliyyət göstərməli və xalqın tələbatını ödəməli olduğu halda onlar arasında daim daxili ziddiyyətlər olur. Dövlət ictimai və xalq maraqları təmsil etsə də cəmiyyətlə dövlətin maraqları üst-üstə düşməyə bilər. Bunun səbəbi isə dövlətin kütlədən uzaqlaşması, dövlət idarəetmə aparatının özünün maraqlarının ödənilməsinə yönəlməsidir.

Siyasi sferada meydana gələn ziddiyyətlərdən biri də siyasi sistemin elementləri arasında yaranan ziddiyyətlərdir. Dövlət hakimiyyətinin müxtəlif subyektləri arasında baş verən ziddiyyətlər demək olar ki, tarixi inkişafın bütün dövrlərində müşahidə olunmuşdur. Daha dəqiq desək bu ziddiyyətlər əsasən regional və mərkəzi hakimiyyət subyektləri arasında seydana çıxır. Məsələn, Sovetlər İttifaqı süquta uğradıqdan sonra Rusiya Federasiyasının bəzi subyektləri mərkəzə tabe olmaqdan boyun qaçıraraq, federal qanunlarla razılaşmaqdan imtina etmişlər. Siyasi sistemin elementləri arasındakı ziddiyyətlərdən danışarkən siyasi partiyalar arasında olan ziddiyyətləri də qeyd etmək lazımdır. Siyasi partiyalar arasında baş verən ziddiyyətlərin mahiyyətinin bunlardan ibarətdir: birincisi, partiyalar arasında hakimiyyət uğruda barışmaz mübarizə gedir; ikincisi, bəzən elə olur ki, öir çox partiyalar öz məqsədlərini və sosial bazarlarını dəqiq şəkildə müəyyən edə bil-

mirlər və s. bütün bunlar sübut edir ki, ziddiyyətlər cəmiyyətin siyasi həyatının inkişafının bütün mərhələlərini əhatə edir. Lakin, qeyd etmək lazımdır ki, ziddiyyətlər heç də həmişə siyasi münaqişələrin meydana gəlməsini şərtləndirən səbəb olmur. Əgər subyektin iddiaları cəmiyyətin fəaliyyət qanunauyğunluqlarını nəzərə alarsa, onda siyasi proseslər münaqişələrsiz inkişaf edəcəkdir. Yaxud əksinə, ziddiyyətlər böyüyərək qarşıduran qüvvələr arasında mübarizəyə. siyasi münaqişəyə çevrilə bilər. Bu isə o zaman baş verir ki, tərəflərdən biri və ya hər ikisi siyasi proseslərin obyekiv inkişafını nəzərə almırlar.

Tarixi təcrübələr göstərir ki, siyasi münaqişələrin başlıca səbəbləri kimi hakimiyyət və hakimiyyət münasibətləri, siyasi rejim, ictimai-siyasi birliklər, liderlərin şəxsiyyəti, sinfi ağalıq, milli münasibətlər, ərazi, resurlar və onlara nəzarət və s. çıxış etmişlər. Münaqişə edən tərəflər üçün münaqişələrin səbəbləri eyni olsa da, tərəflərin bunu qiymətləndirilməsi müxtəlif ola bilər. Bu münaqişə subyektlərinin birn-birinə zidd olan məqsədlərindən irəli gəlir. Məsələn, təcavüzkar dövlət üçün münaqişənin predmeti rolunda digər dövlətin siyasi rejimi çıxış edir. Hücuma məruz qalmış dövlət isə hər şeydən öncə öz ərazisini və suverenliyini qorunmalı olur. Bunlar da onun üçün münaqişənin əsas predmeti rolunu oynayır. Lakin nəzərə almaq lazımdır ki, münaqişələrin inkişaf tendeniyası münaqişə edən tərəflərin onun predmetini necə başa düşməsindən asılı olmasına baxmayaraq, münaqişələrin həlli zamanı bir çox manеələr meydana çıxara bilər. Münaqişələrin səbəblərinin eyni dərk edilməməsi nəinki münaqişələrin tənzimlənməsini çətinləşdirir, hətta danışıqlar prosesinin yarımçıq dayandırılmasına da gətirib çıxra bilər. Münaqişələrin baş vermə səbəblərinin münaqişə subyektləri tərəfindən müxtəlif cür dərk edilməsi qeyri-obyektiv xarakter daşıyır və hər hansı bir konkret məqsəd üçün bilərəkdən edilir. məsələn, Qarabağ münaqişəsinin səbəbi hamıya aydındır. Ermənistan respublikamıza qarşı təsavüzkar siyasət yeridərək ərazimizin 20 %-ə qədərini işğal etmişdir. Belə bir vəziyyətdə Ermənistan da daxil olmaqla bir çox dövlətlər münaqişənin baş vermə səbəblərinə qeyri-obyektiv yanaşırlar. Yəni erməni tərəfi bilərəkdən münaqişənin yaranmasının əsas səbəblərini gizlədərək, münaqişənin səbəbi kimi Azərbaycan Respublikası tərəfindən Dağlıq Qarabağ ərazində yaşayan erməni azlıqların hüquqlarının və azadlıqlarının pozulmasını, həmin ərazilərin onların tarixi torpaqları olduğu halda Ermənistana verilməməsini göstərirlər. Münaqişənin digər tərəfi, Azərbaycan Respublikası isə münaqişənin baş vermə səbəblərini obyektiv qiymətləndirərək, erməni qəsbkarlarının respublikamızın ərazisini tərk etməsini tələb edir. Məhz erməni tərəfinin və bir çox dövlətlərin münaqişəni yaradan səbəblərə belə qeyri-obyektiv qiymət vermələri nəticəsində artıq 20 ildir ki, Qarabağ münaqişəsi öz həllini tapmır. (5, s.37)

Siyasi münaqişələrin inkişaf səviyyəsindən asılı olaraq münaqişələrin iştirakçıları kimi, onların predmetləri də dəyişə bilər. Yəni, bəzən elə hallar olur ki, münaqişənin yaranmasını şərtləndirənhər hansı bir səbəb münaqişə subyektlərinin müxtəlif səbəblərdən qarşılarına qoyduqları məqsədlərini dəyişikdikdə baş verir.

Münaqişələrin, həmçinin siyasi münaqişələrin baş vermə səbəbləri haqqında deyilənlərin ümumiləşdirərək bu problemə müxtəlif nəzəri yanaşmaların mövcud olduğu görərik. Bu yanaşmaların qısa şəkildə aşağıdakı kimi nəzərdən keçirmək olar:

1.Münaqişələrin səbəbi insanlar arasında resursların qeyri-bərabər bölünməsidir. Bu isə ərazi, xammal və enerci, maddi və mənəvi dəyərlər, hakimiyyət resurları və s. ola bilər. İnsanların ictimai sərvəilərə münasibətdə qeyri-bərabər mövqe tutmaları sosial ziddiyyətlərə səbəb olur. Bəzi mütəfəkkirlərin fikrincə bu cür qeyri-bərabərlik məhz siyasi hakimiyyət sferasında formalışır.

2. Münaqişələrin əsasında insanların universal tələbatlarının ödənilməməsi durur. Görkəmli sosioloq P.Sorokin yazırdı: demək olar ki, bütün inqilabların birbaşa səbəbi rolunda insanların tələblərinin heç olması minimum səviyyədə ödənilməməsi çıxış edir.

3. Münaqişələri siyasətin təbiəti ilə izah edirlər. Münaqişələrin baş vermə səbəblərinə bü cür yanaşma alman politoloqu və hüquqşünası K.Smittə münasibətlərin «dost»-«düşmən» formasında mövcud olmasından ibarətdir. Ona görə də istənilən siyasi münasibətlər təbiət etibari ilə münaqişəli xarakterə malikdirlər.

4. Münaqişələrin baş vermə səbəbləri insanların təibətində axtarılır. Bu yanaşmanın müəllifi olan K.Lorensin fikrincə fikrincə insanların təbiətində daim korakılıq meyllik hiss olunur və s.(2, s.45)

### ƏDƏBİYYAT

1.Анцупов А.Я. Конфликтология. М., 1992. с.251
2.Дмитриев А.В. Конфликтология. М., 2003. с. 28
3.Дмитриев А.В., Кудрявцев В.Н., Кудрячев С.В. введение в общую теория конфликта. М., 1993
4.Глухова А.В. Типология политических конфликтов. Воронеж, 1997
5.Əliyev Q Dayızadə H. Konfliktologiyaya giriş. B., 1998

**РАХИЛЯ БАДАЛОВА**
***Доцент БГУ***

### ПОЛИТИЧЕСКИЕ КОНФЛИКТЫ, ЗНАЧЕНИЕ И ПРИЧИНЫ ВОЗНИКНОВЕНИЯ

В статье «Политические конфликты, значение и причины возникновения» говорится о значении и причинах возникновения политических конфликтов, о подходах к проблеме, определяется объект и субъект конфликта. В то же время удиляется вниманиек политике как важной категории государства и общества, политической системе, возникновении и ограничении между ее элементами, причины возникновения и расследования ее источников.

**RAHILYA BADALOVA**
***assistant professor of BSU***

### POLICY CONFLICTS, MEANING AND REASONS OF HAPPENING CONFLICTS

In the article "Policy conflicts, meaning and reasons of happening conflicts" saying about policy conflicts, meaning and reasons of happening conflicts, investigated object and subject. Also was showed attention to policy as base kathegory of governmet society, to political system and appearing of confusing between it elements, reason of appearing and investigating it sources.

***Rəyçilər: dos.A.M.Piriyev, f.e.d.N.M.Mikayılov.***
***BDU-nun Politologiya və sosiologiya kafedrasının 01 may 2009-cu il tarixli iclasının qərarı ilə çapa məsləhət görülmüşdür (protokol №08).***